# 400 çadırla qurulan Dünya Dövləti-Osmanlı İmperatorluğu



Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

(əvvəli ötən sayımızda)

## Osmanlı İmperatorluğunun sonuncu savaş zəfərləri Çanakkale Savaşı

***Çanakkale Savaşı 1915-1916-cı illərdə Gelibolu Yarımadasında Osmanlı İmperatorluğu ilə Antanta dövlətləri (İngiltərə, Fransa, Anzaklar) arasında baş verən dəniz və quru döyüşüdü. İttifaq dövlətləri Osmanlı İmperatorluğunun paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiya ilə etibarlı qida və və hərbi ticarət yolu açmaq, Almaniyanın müttəfiqlərindən birini sıradan çıxartmaq məqsədi ilə ilk hədəf olaraq Çanakkale boğazına girmişdilər. Çanakkale Savaşı Türk millətinin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərmiş bu döyüş Türk Qurtuluş Savaşına da təsir etmişdir.Türkiyə Cumhuriyyəti qurulduqdan sonra ingilis və fransız ordularının məğlub edildiyi gün, yəni 18 mart Çanakkale Şəhidlərinin Anma Günü olaraq elan edilmişdir. Müttəfiqlərdə isə bu döyüş əsgəri bacarıqsızlıq və fəlakət simvolu olaraq sayılmışdır. Erik Bolc tərəfindən yazılan döyüş əleyhdarı mahnısı “And The Bant Played Waltzing Matilda” bu döyüşlə əlaqədardır.***

### Savaşın başlanğıcı

19 fevralda 1915-ci ildə güclü Fransız qüvvələri ilə ingilis Elizabet döyüş gəmisi Osmanlı sahil qüvvələrini bombalayaraq ilk Çanakkale hücumunu başlamış oldular. Admiral da Robeckun tabeliyində olan ən azı 16 döyüş gəmisindən ibarət nəhəng donanma Çanakkaleni keçməyə qalxmışdır. Ancaq Nüsrət Mina Gəmisi adlı Osmanlı mina gəmisinin boğazın Asiya tərəfinə yerləşdirdiyi dəniz minaları tərəfindən böyük ziyan aldılar.Bəzi balıqçılar ingilislər tərəfindən mina toplamaq işinə cəlb edilsələr də, Osmanlı ordusunun açdığı top atəşindən qorxaraq qaçmışdılar.Yerində qalmış bu minalar ingilis və fransızların üç döyüş gəmisini batırmışdır. Daha bir-neçə ingilis və fransız döyüş gəmilərinə böyük ziyan dəymişdir.İngilis donanmasının məğlub olması Türk əsgərlərinə inanılmaz bir mənəvi qüvvət vermişdir.Bu ağır itkilər İttifaq dövlətlərinə Çanakkaledən dəniz yolu ilə keçə bilməyəcəklərini qəti formada göstərdi. İttifaq dövlətləri quru əməliyyatına başlayaraq sahili Türk toplarından təmizləmək istədilər. İttifaq Dövlətləri yarımadaya çıxaraq Osmanlı Dövlətini qurudan məğlub etməyi planlaşdırmışdılar. Hücum iki cəbhədən, Seddülbahir Cəbhəsindən və Arıburnu Cəbhəsindən edilmişdir.

Türk Ordusunun Baş ştabı 23 mart 1915-ci ildə Geliboluda 5-ci ordunun yaradılması haqda qərar qəbul etmiş, komandanlığa isə alman generalı Liman fon Sandersi təyin etmişdi.

Liman fon Sanders mümkün ola bilən hər cür düşmən hücumuna qarşı qüvvələri üç qrupa bölərək işləri planlaşdırmışdı; Mustafa Kamalın rəhbərlik etdiyi qüvvələri ehtiyat ordu kimi saxlamışdı. Mustafa Kamal bu plana görə,18 aprel 1915-ci ildə tümeni ilə (diviziyası) ilə Biqalıya keçdi. Mustafa Kamal burada 19-cu diviziyaya əlavə olaraq 9-cu diviziyanın 2-ci alayı və bəzi topçu birləşmələri də tabeliyinə alaraq Maydos hərbi dairəsi komandanı olmuşdu.

Seddülbahir Cəbhəsindəki ingilis və fransız birliklərinin hücuma keçməsinə qarşı Türk ordusu əks hücumla cavab verərək onları geri atmışdılar.Hücumun uğursuz olması səbəbindən General Sirr Ian Hamilton ,Seddülbahir Cəbhəsində heç bir döyüşün keçirilməməsi əmrini vermişdir.

Arıburnu Cəbhəsində 25 aprel 1915-ci iln səhəri hücuma keçən Anzak Kolordusu qüvvələri isə,Polkovnik Mustafa Kamalın 10 avqust səhəri başlatdığı hücum ilə geri çəkilmək məcburiyyətində qalmışdılar. Mustafa Kamal desant dəstələrini görər-görməz qüvvələrini sürətlə Biqalıdan Conk Bayıra köçürdü. Arıburnundan Conk Bayıra irəliləyən ingilis qüvvələri həmin gün Mustafa Kamalın komandanlıq etdiyi 19-cu diviziyanın hücumu ilə geri çəkilməyə məcbur edildi.

Conk Bayırın mmüdafiəsində Türk əsgəri görülməmiş bir mətanət və cəsarətlə vuruşur,tarixin ən böyük qəhrəmanlıq səhnələrini nümayiş etdirirdi. Dahi komandan əsgərlərinə verdiyi əmrlərə bu cümləni əlavə edirdi: “Mən sizə hücum əmri vermirəm;ölməyi əmr edirəm!Biz ölənə qədər keçən zaman ərzində yerimizə başqa qüvvələr və komandanlar keçə bilər!

***Gelibolu yarımadasında bir nəticə əldə edə bilmək üçün ingilis generalı Sır Ian Hamilton şimalda üçüncü bir cəbhə (Anafartalar Cəbhəsi) açmaq qərarına gəlmişdi. 6 Avqust 1915-ci il tarixində Suvla Qoyuna qoşun çıxarıldı. 5-6 avqust gecəsi başlayan hücum gün boyu davam etmişdir. Osmanlı İmperatorluq ordusu mövqelərini qorumağı bacarmışdı. Getdikcə genişlənən bu böhranlı vəziyyətlə əlaqədar olaraq Liman fon Sandersin əmri ilə komandanlıqda dyişiklik edilərək, “Anafartalar qrupu komandanlığına “ 8 avqust 1915-ci ildə albay Mustafa Kamal gətirildi.***

Beləliklə, düşmənin irəliləməsinə imkan verilməmiş,əksinə,onlar tutduqları mövqelərdən tamamilə çıxarılaraq, Anafartalar bölgəsinə tam mənası ilə hakim olunmuşdu. Misirdə olan 5.000 minlik bir ingilis diviziyası da cəbhəyə gətirildi.Anafartalar Cəbhəsindəki qüvvələrə birlikdə ümumi hücum planlaşdırıldı. İkinci ümumi hücumla eyni gündə, 21 avqustda Anzak birliklərinin Tekke Təpə hücumu nəticəsiz və Çanakkale Döyüşünün son savaşlarından biri olmuşdur.1915-ci il avqustun 26-28-də Türk Ordusunun Anafartalar qruplaşması Mustafa Kamalın komandanlığı ilə əks hücuma keçib Antanta ordusunu ağır yenilgiyə uğratdı.Bundan sonra Türk ordusunun digər hissələri hücuma keçdi və Çanakkale əməliyyatında parlaq qələbə çaldılar.Tekke Təpədəki qarşıdurmalar isə 29 avqust tarixinə qədər davam etsə də təpə Türk əsgərlərinin əlində qalmışdı.Antanta Çanakkale Savaşında 270 min nəfər itirdi.Osmanlı İmperatorluğunun insan itkisi 250 min nəfərə çatırdı.

Osmanlı qüvvələrinin müqaviməti qarşısında cəbhələr bağlanmışdı.Bolqarıstan 14 oktyabr 1915-ci il tarixində Almaniya,Avstriya-Macarıstan və Osmanlı İmperatorluğu ilə hərbi müttəfiq oldu.General Ian Hamilton vəzifədən alınaraq yerinə General Charles Monro təyin edildi. Osmanlı İmperatorluq ordusunun azad etmə əməliyyatları 9 yanvar 1916-cı ildə tamamlanmışdır.Beləcə Gelibolu müharibələri Osmanlı qüvvələrinin zəfəriylə bitmişdir.Çanakkale qələbəsində Mustafa Kamalın böyük rolu oldu.

Təxminən 50.000 Avstraliyalı,17.000 Yeni Zelandiyalı Çanakkale Savaşında Osmanlı ordusuna qarşı döyüşmüşdür. 25 aprel hər il hər iki ölkədə “Anzak Günü “ olarq qeyd olunur.

### Kutül-Amare Mühasirəsi (7 dekabr 1915-29 aprel 1916)

Kutül-Amare Savaşı I Dünya Müharibəsi İraq cəbhəsində, Osmanlı İmperatorluğu ilə Antanta qüvvələri arasında olan bir mühasirə döyüşüdü.

General-leytenant Cariz Tounshend komandanlığındakı ingilis VI Poona birləşməsi(Hind qrupu) Bağdada irəliləməyə çalışarkən 22-23 noyabr,1915-ci ildə Salman-i Pak (Ktesifon ) döyüşündə Saqqalı Nurəddin Paşa tərəfindən məğlub edilərək geri çəkildi və 3 dekabrda Kut qəsəbəsinə yerləşdilər.

Yeni qurulan VI Osmanlı ordusu komandanlığına təyin edilərək 5 dekabr 1915-ci ildə Bağdada çatan marşal Von der Qoltz Paşanın əmri ilə ilə İraq valisi və komandanı Saqqalı Nurəddin Paşanın hərbi qüvvələri Kutu mühasirəyə aldı. Mühasirəyə alınan ingils əsgərlərinə ilk kömək cəhdi general-mayor Fenton Aylmer komandanlığındakı 19 min nəfərlik ordu tərəfindən oldu.

İngilislər Kutun mühasirəsini ləğv etmək üçün hücuma keçsə də,Şeyx Səəd döyüşündə 4.262 nəfər itki verərək,geri çəkildi. Bu döyüşdə geri çəkilmə əmrini verən Saqqalı Nurəddin Paşa vəzifəsindən alındı və yerinə Ənvər Paşanın özündən bir yaş kiçik olan əmisi general-leytenant Xəlil Paşa təyin edildi.

19 min nəfərlik ingilis ordusu 13 yanvar,1916-cı ildəki Vadi döyüşündə 1600 nəfər itki verərək yenidən geri çəkildi. Bu döyüşdən sonra 21 yanvarda 20 min nəfərlik ingilis qoşunları Fəlahiyyə döyüşündə 2.741 nəfər itki verərək,yenidən geri çəkilməyə məcbur oldular.19 aprel 1916-cı ildə,VI Ordu komandanı Von der Qoltz Paşa Bağdadda olan qərargahında tifus xəstəliyindən öləndən sonra,yerinə Xəlil Paşa gətirildi. 29 aprel1916-cı ildə,general Taunshend Kutda olan aclığın təsiri ilə digər 5 general, 481 zabit və 13.300 əsgər ilə birlikdə Osmanlı qüvvələrinə təslim oldular. İngilslər Kut Savaşında 23.000 ölü və yaralı vermişdilər.13.309 ingilis hərbçisi Osmanı ordusuna əsir düşmüşdü.



***19 min nəfərlik ingilis ordusu 13 yanvar,1916-cı ildəki Vadi döyüşündə 1600 nəfər itki verərək yenidən geri çəkildi. Bu döyüşdən sonra 21 yanvarda 20 min nəfərlik ingilis qoşunları Fəlahiyyə döyüşündə 2.741 nəfər itki verərək,yenidən geri çəkilməyə məcbur oldular.19 aprel 1916-cı ildə,VI Ordu komandanı Von der Qoltz Paşa Bağdadda olan qərargahında tifus xəstəliyindən öləndən sonra,yerinə Xəlil Paşa gətirildi. 29 aprel1916-cı ildə,general Taunshend Kutda olan aclığın təsiri ilə digər 5 general, 481 zabit və 13.300 əsgər ilə birlikdə Osmanlı qüvvələrinə təslim oldular. İngilslər Kut Savaşında 23.000 ölü və yaralı vermişdilər.13.309 ingilis hərbçisi Osmanı ordusuna əsir düşmüşdü***

### VI Mehmed Vahidəddin

***Həyatının böyük hissəsini təzyiqlər altında keçirən, səltənəti dövründə böyük böhranlar yaşayan Sultan V Mehmed Rəşad Mudros sülhünün imzalanmasını görmədən vəfat etdi (3 iyul 1918).V Mehmed Rəşadın yerinə Osmanlı taxtına VI Mehmed Vahidəddin çıxdı. Sultan VI Mehmed Vahidəddin 36 –cı sonuncu Osmanlı Sultanıdı.Hakimiyyət illəri 3 iyul 1918-1 noyabr 1922-ci illərdi.VI Mehmed 28 –ci Osmanlı xəlifəsi və 115-ci İslam xəlifəsidi.14 yanvar 1861-ci ildə Dolmabağça sarayında dünyaya gəlmişdi. Atası Sultan Əbdülməcid,anası Gülüstü xanımdı. Aldığı saray təhsili və Fateh mədrəsəsində aldığı bəzi dərslərlə özünü yetişdirdi.Böyük qardaşı II Əbdülhəmid (1876-1909) taxta çıxdıqdan sonra ona hədiyyə etdiyi Çəngəlköy köşkündə məskunlaşdı və taxta çıxanadək burada yaşadı.Bu səbəblə yaşadığı bu köşk Vahidəddin köşkü adlanmağa başlandı. Dövrünün Osmanlı vəliəhdi Yusuf İzzəddin Əfəndinin gözlənilməz ölümünün ardından (1 fevral 1916) Osmanlı taxtının rəsmi vəliəhdi elan edildi.***

(ardı var)